AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

29 fevral 2016-cı il № 9-12 (9015) Qiymәti 50 qәpik

## BU SAYIMIZDA

### “AÇIQ QAPI GÜNÜ”NDƏ AÇIQ SÖHBƏTƏ ÜSTÜNLÜK VERİLDİ

Respublikamızda 2016-cı il üçün tələbə qəbulu kampaniyası artıq başlanıb. 2016/2017-ci tədris ilində Azərbaycan Dövlət Dəniz Akademiyasına yüksək göstəricilərə malik abituriyentlərin qəbul olmasını təmin etmək məqsədilə, eləcə də ölkəmizin müxtəlif regionlarında və paytaxtda yerləşən orta məktəblərdə aparılan təbliğat layihəsinin tərkib hissəsi kimi, fevralın 20-də ADDA-da “Açıq qapı günü” keçirildi.

Səh. 2

### KÜVEYT HÖKUMƏTİ MƏRKƏZİ DƏNİZÇİLƏR XƏSTƏXANASINA MÜASİR TİBBİ AVADANLIQLAR HƏDİYYƏ ETDİ

Fevralın 17-də Küveyt hökuməti adından Küveyt Beynəlxalq Xeyriyyə Təşkilatının nəzdində fəaliyyət göstərən Asiya Müsəlmanları Komitəsinin xətti ilə Mərkəzi Dənizçilər Xəstəxanasına Almaniyanın “Karl Storz” şirkətinin istehsalı olan və böyrək daşı xəstəliklərinin cərrahi müdaxilə olmadan müalicəsini həyata keçirmək üçün istifadə edilən 245 min manatlıq müasir tibbi avadanlıqlar hədiyyə edildi.

Səh. 3

### BƏŞƏRİYYƏTƏ QARŞI TÖRƏDİLMİŞ ƏN QANLI CİNAYƏT

Ümummilli Liderimiz Heydər Əliyev Xocalı faciəsini “Ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktı, bütün bəşəriyyətə qarşı cinayət” kimi qiymətləndirmişdi. Bu soyqırımı qurbanlarının xatirəsi, ölkəmizin hər yerində olduğu kimi, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətində də silsilə tədbirlərlə anıldı.

Səh. 4

### XƏZƏRDƏ GƏMİÇİLİYİN TARİXİNDƏN

1918-ci il mayın 28-də Milli Şura tərəfindən Azərbaycanın istiqlaliyyəti elan olundu. Azərbaycan Demokratik Respublikası mövcud olduğu iyirmi üç ayda qurub-yaratmaqla bərabər, həm də yaşamaq uğrunda ölüm-dirim mübarizəsi aparırdı. Azərbaycanı müstəqil görmək istəməyən erməni daşnakları və yeraltı-yerüstü sərvətləri zəngin ölkəmizin əldən çıxması ilə barışmayan sovet hakimiyyəti əlbir olaraq gənc respublikamıza qarşı siyasi-iqtisadi təxribatlar törədir, onu elə beləkdə boğmağa çalışırdılar.

Səh. 5

### AZƏRBAYCANIN REGİONDA APARICI NƏQLİYYAT VƏ YÜKDAŞIMA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ İMKANLARI MÜZAKİRƏ EDİLİB

Mərkəzi Asiya və Ərəb Körfəzi vasitəsilə Avropa ilə Çini birləşdirən qədim İpək Yolunun bərpası, dəhliz boyu yerləşən ölkələrin bu layihədə iştirakı, o cümlədən Azərbaycanın regionda aparıcı nəqliyyat və yükdaşıma mərkəzinə çevrilməsi imkanları müzakirə edilib.

Səh. 7

# ADDA-ya BEYNƏLXALQ SERTİFİKAT TƏQDİM OLUNDU

*Dünyanın nüfuzlu təsnifat cəmiyyətlərindən olan Amerika Gəmiçilik Bürosunun (ABS) Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə iş birliyi öz əməli nəticələrini verməkdədir.*



Yanvarın 26-dan fevralın 2-dək Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdindəki Dənizçilərin hazırlanması və sertifikatlandırılması mərkəzində aparılmış beynəlxalq auditin nəticələrinə görə, burada tədris olunan 34 təlim kursundan 10-nun ABS-in “Tədris müəssisələrinin və təlim kurslarının sertifikatlaşdırılması üzrə standartları”na uyğunluğu təsdiqlənib. İl ərzində digər kursların da auditdən keçiriləcəyi nəzərdə tutulub.

Fevralın 17-də Azərbaycan Dövlət Dəniz Akademiyasında təşkil olunan ABS sertifikatının təqdimat mərasimində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbər işçiləri, Dəniz Akademiyasının professor-müəllim heyəti, tələbələr iştirak edirdilər.

Tədbiri Dəniz Akademiyasının rektoru Çingiz Əliyev açaraq, bu ali təhsil müəssisəsinin tarixində ilk dəfə olaraq Amerika Gəmiçilik Bürosu kimi tanınmış beynəlxalq qurumun sertifikatının alınmasını qürur doğuran fakt kimi qiymətləndirdi.

ABS-in nümayəndəsi, kapitan Titos Giannakakis çıxışında bildirdi ki, bu gün Amerika Gəmiçilik Bürosu ilə Azərbaycan Dövlət Dəniz Akademiyasının uzunmüddətli əməkdaşlığının təməli qoyulur. Dəniz Akademiyasında beynəlxalq tələblərə uyğunlaşmaq istiqamətində xeyli iş görülüb, irəlidə isə daha böyük nailiyyətlər durur. ABS Akademiyaya tədris kurslarının və səmərəli təlimlərin təşkilində hərtərəfli kömək göstərməyə hazırdır.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Zamiq İsmayılov ADDA-nın məzunu kimi iftixar hissi keçirdiyini söyləyərək, uyğunluq sertifikatının təqdim olunmasını ABS-lə gələcək əməkdaşlığın ilkin mərhələsi hesab etdiyini vurğuladı və Gəmiçiliyin rəhbərliyi adından Dəniz Akademiyasının kollektivinə yeni-yeni uğurlar arzuladı.

Mərasimin sonunda kapitan Titos Giannakakis Amerika Gəmiçilik Bürosunun Uyğunluq Sertifikatını Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyevə təqdim etdi.

# “DƏNİZLƏ SƏRNİŞİNLƏRİN VƏ ONLARIN BAQAJLARININ DAŞINMASI ZAMANI DƏYMİŞ ZİYANA GÖRƏ MƏSULİYYƏT”





***Fevralın 10-11-də Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında (ARDDA) Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək” adlı tvinninq layihəsi çərçivəsində “Dənizlə sərnişinlərin və onların baqajlarının daşınması zamanı dəymiş ziyana görə məsuliyyət” mövzusunda seminar keçirilib.***

Seminar müddətində dənizlə sərnişinlərin və onların baqajlarının daşınması zamanı icrası vacib olan prosedurlar, bundan irəli gələrək yerli qanunvericilikdə və Beynəlxalq Konvensiyalarda nəzərdə tutulan öhdəliklər barədə geniş məlumat verilib.

Seminarda Dövlət Dəniz Administrasiyasının əməkdaşları ilə yanaşı, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC, “Caspian Marine Services” MMC, Azərbaycan Yeni Nəsil Hüquqşünaslar Assosiasiyasının nümayəndələri və Bakı Dövlət Universitetinin dəniz və enerji hüququ fakültəsinin müəllim və magistrantları iştirak ediblər.

Tvinninq layihəsi çərçivəsində ölkəmizə dəvət olunan İspan mütəxəssislər — professorlar J.L.Qabaldon və A.Villa, eləcə də kapitan L.Fernandez sərnişinlərin və onların baqajlarının daşınması zamanı sənədləşmə, bağlanılan müqavilələr, bu sahədə tənzimləyici baza rolunu oynayan 1974-cü ildə qəbul olunan Afina Konvensiyası, Avropa Parlamenti və Avropa Şurasının qəzalar zamanı sərnişindaşıyıcılarının məsuliyyətinə dair tənzimləyici sənədi barədə geniş məlumat veriblər. Seminarın sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Qeyd edək ki, “Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək” adlı tvinninq layihəsi 2015-ci il noyabrın 16-dan həyata keçirilir. Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar Beynəlxalq Konvensiyalarda nəzərdə tutulmuş məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsində və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialının gücləndirilməsindən ibarət olan bu layihə çərçivəsində müvafiq olaraq müxtəlif mövzularda seminarların təşkil olunması nəzərdə tutulur.

***Respublikamızda 2016-cı il üçün tələbə qəbulu kampaniyası artıq başlanıb. 2016/2017-ci tədris ilində Azərbaycan Dövlət Dəniz Akademiyasına yüksək göstəricilərə malik abituriyentlərin qəbul olmasını təmin etmək məqsədilə, eləcə də ölkəmizin müxtəlif regionlarında və paytaxtda yerləşən orta məktəblərdə aparılan təbliğat layihəsinin tərkib hissəsi kimi, fevralın 20-də ADDA-da “Açıq qapı günü” keçirildi.***




# “AÇIQ QAPI GÜNÜ”NDƏ AÇIQ SÖHBƏTƏ ÜSTÜNLÜK VERİLDİ









Tədbirə X-XI sinif şagirdləri və onların valideynləri ilə yanaşı, Səbail rayon icra hakimiyyətinin, Dövlət Dəniz Administrasiyasının, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbər işçiləri də dəvət olunmuşdular.

Dəniz Akademiyasının rektoru Çingiz Əliyev qonaqları salamlayaraq, bölgədə ali təhsilli dənizçi kadrlar hazırlayan bu yeganə təhsil ocağının maddi-texniki bazası, təlim-tədris prosesi, tələbələr üçün yaradılmış şərait barədə ətraflı məlumat verdi. Bildirdi ki, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC yaradıldıqdan sonra Gəmiçiliyin rəhbərliyi Dəniz Akademiyasının problemlərinə xüsusi həssaslıqla yanaşır, dənizçi peşəsinin nüfuzunun bərpası istiqamətində ardıcıl tədbirlər görür. Belə ki, tədrisin yüksək beynəlxalq standartlar səviyyəsində aparılması üçün yeni trenajorlar, laboratoriyalar alınır, xarici dillərin öyrədilməsinə böyük diqqət yetirilir. Bununla yanaşı, tələbələrin sosial həyatına fikir verilir, onlar pulsuz yataqxana və geyim forması, gündə iki dəfə pulsuz isti yemək, bütün lazımi mühazirə və dərsliklərlə təmin olunurlar.

Səbail RİH başçısının müavini Xalidə Bayramova icra hakimiyyəti ilə Gəmiçiliyin əməkdaşlığından, birgə layihələrindən söhbət açdı, rayonda əlil uşaqlara, imkansızlara, şəhid ailələrinə göstərilən qayğıya görə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə minnətdarlığını bildirdi.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Zamiq İsmayılov çıxışında bildirdi ki, Azərbaycanın sürətli və hərtərəfli inkişafının əsasında ölkəmizi tərəqqi yoluna çıxarmış Ulu Öndər Heydər Əliyevin ideyaları və siyasi kursunun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi dayanır. İstənilən dövlətin, xalqın öz gələcəyinə əminliyi isə məhz gəncliklə bağlı olur. Müstəqil Azərbaycan dövləti də ilk növbədə, gəncliyinin intellektual inkişafına nail olmaqla, bütövlükdə ölkənin daha xoşbəxt gələcəyinin etibarlı təməlini qoyur. Buna görə, Azərbaycan Dövlət Dəniz Akademiyasında da həyata keçirilən islahatların əsas hədəfləri sırasında tələbələrdə yetkin düşüncə tərzinin, aydın vətəndaşlıq mövqeyinin formalaşdırılması xüsusi yer tutmalıdır.

Sədrin birinci müavini daha sonra valideynlərə və gənclərə şərəfli dənizçi peşəsindən söz açdı, dünya sularında müstəqil Azərbaycanın üçrəngli bayrağının dalğalandırmağın böyük qürur hissi doğurduğunu vurğuladı. Qeyd etdi ki, o da vaxtilə Dəniz Akademiyasını bitirib və bu təhsil ocağında aldığı biliklər hesabına uğurlu karyera qurub. Bu yol hər bir məktəbli və tələbə üçün açıqdır. Yaxşı oxumaqla, elmlərə yüksək səviyyədə yiyələnməklə həyatda müvəffəqiyyət qazanmaq gənclərin öz əlindədir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi isə hər zaman onların yanındadır və bacarıqlı, savadlı mütəxəssislərin yetişdirilməsi üçün əlindən gələni edir.

Dövlət Dəniz Administrasiyası rəisinin müavini Şahlar Məmmədov təcrübəli dənizçi kimi tarixi məqamlara toxunaraq, müstəqil pespublikamızda dəniz nəqliyyatının formalaşmasında Ulu Öndər Heydər Əliyevin xidmətlərindən söz açdı. Azərbaycanın bir dəniz dövləti kimi beynəlxalq aləmdə tanınması, dənizçilik sahəsində nüfuz qazanması barədə gətirilən faktlar gənclərin xüsusi marağına səbəb oldu.

Görüşdə Azərbaycan Dövlət Dəniz Akademiyası haqqında videofilm nümayiş etdirildi, valideynlərə və məktəblilərə təhsil müəssisəsinin potensialı ilə bağlı ətraflı bilgilər çatdırıldı.

Qonaqlar Dəniz Akademiyasının auditoriya və laboratoriyalarını gəzdilər, beynəlxalq standartlara cavab verən tədris trenajorları ilə yaxından tanış oldular. Müxtəlif fakültələrin dekanları və kafedra müdirləri onları maraqlandıran bütün suallara ətraflı cavab verdilər.

Dəniz Akademiyasında “Açıq qapı günü” bilik bayramı ovqatı ilə yekunlaşdı.

# QAZAXISTANLI QONAQLAR “AKADEMİK ZƏRİFƏ ƏLİYEVA” GƏMİ-BƏRƏSİ İLƏ TANIŞ OLUBLAR



***Bakıda səfəri müddətində Qazaxıstanın baş nazirinin birinci müavini Bakıtjan Sagintayevin başçılıq etdiyi nümayəndə heyəti dəniz nəqliyyatı vasitəsilə ticarət və yüklərin daşınması sahəsində potensial imkanlarla yaxından tanış olmaq üçün fevralın 16-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında olub.***

Nümayəndə heyətinə limandakı iş prosesi barədə ətraflı məlumat verilib. Sonra qonaqlar Bakı limanında yüklərin tranziti sxemi, gömrük məntəqəsinin işi, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin körpüyə yan almış “Akademik Zərifə Əliyeva” bərəsi ilə yaxından tanış olublar.





# KÜVEYT HÖKUMƏTİ MƏRKƏZİ DƏNİZÇİLƏR XƏSTƏXANASINA MÜASİR TİBBİ AVADANLIQLAR HƏDİYYƏ ETDİ

***Fevralın 17-də Küveyt hökuməti adından Küveyt Beynəlxalq Xeyriyyə Təşkilatının nəzdində fəaliyyət göstərən Asiya Müsəlmanları Komitəsinin xətti ilə Mərkəzi Dənizçilər Xəstəxanasına Almaniyanın "Karl Storz" şirkətinin istehsalı olan və böyrək daşı xəstəliklərinin cərrahi müdaxilə olmadan müalicəsini həyata keçirmək üçün istifadə edilən 245 min manatlıq müasir tibbi avadanlıqlar hədiyyə edildi.***




Bu münasibətlə Mərkəzi Dənizçilər Xəstəxanasında keçirilən tədbirdə səhiyyə ocağının kollektivi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbər işçiləri ilə yanaşı, Küveytin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz əl-Rumi, birinci katibi Feysəl əl-Muteyri, konsul Bədr əl-Ədvani, Asiya Müsəlmanları Komitəsinin Azərbaycanda baş nümayəndəsi Dr. Xalid Abu Nəhlə, Nazirlər Kabinetinin humanitar məsələlər üzrə məsul şəxsləri, Azərbaycan Xarici İşlər Nazirliyinin Yaxın Şərq və Afrika idarəsinin birinci katibi Bayram Məmmədbəyli, Azərbaycan Respublikasının Qaçqınlar və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin nümayəndələri, jurnalistlər iştirak edirdilər.

Tədbiri giriş sözü ilə Mərkəzi Dənizçilər Xəstəxanasının baş həkimi, tibb elmləri doktoru Gerasim Rüstəmov açdı. Qonaqları respublikamızın tanınmış səhiyyə ocaqlarından olan Mərkəzi Dənizçilər Xəstəxanasında salamlamaqdan məmnunluğunu dilə gətirən baş həkim Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi rəhbərliyinin dənizçilərin və onların ailə üzvlərinin yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunmasına daim diqqət yetirdiyini, xəstəxananın ən müasir avadanlıqlarla təminatı üçün görülən işlərin xəstələrin müayinə və müalicəsini uğurla həyata keçirməyə imkan verdiyini bildirdi. Elə bu yaxınlarda xəstəxana üçün müasir 3 D endoskopik tibbi avadanlıqlar alınaraq həkimlərin ixtiyarına verilib. Küveyt hökumətinin Mərkəzi Dənizçilər Xəstəxanasına bu əvəzsiz hədiyyəsi də kollektiv tərəfindən yüksək qiymətləndirilir. Bu nəcib hərəkətə görə Mərkəzi Dənizçilər Xəstəxanasının kollektivi adından Küveyt hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Bir insanın həyatını xilas edən kəs bütün dünyanı xilas edir.

Küveytin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz əl-Rumi qeyd etdi ki, Azərbaycan ilə Küveyt dövləti arasında dostluq münasibətləri yaranıb. O, dedi:" Azərbaycan və Küveyt öz regionlarında mühüm rol oynayır. Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Bu, iqtisadi sahədə də əməkdaşlığımızı genişləndirməyə imkan yaradır. Bundan əlavə, dövlətimizi və xalqımızı birləşdirən ümumi dəyərlər var, dini və mədəni əlaqələrimiz münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edir."

Xeyriyyəçilik mövzusuna toxunan diplomat qeyd etdi ki, bu məsələ Küveyt hökumətinin fəaliyyətinin əsas prioritetlərindən biridir. Küveyt adından müasir tibb avadanlıqlarının təqdim edilməsi Asiya Müsəlmanları Komitəsi ilə bağlanmış saziş əsasında həyata keçirilib. Sazişə əsasən, xəstəxananın kollektivi bu müasir tibbi cihazlardan istifadə edərək qaçqın, məcburi köçkün və digər ehtiyacı olan aztəminatlı ailələrin nümayəndələrinə ödənişsiz xidmət göstərəcək.

Səfir daha sonra Küveyt dövlətinin son 2 ildə xeyriyyəçilik məqsədləri üçün təqribən 600 min ABŞ dolları məbləğində vəsait ayırdığını, ümumiyyətlə isə, Asiya Müsəlmanları Komitəsinin Azərbaycanda fəaliyyətə başlamasından indiyədək xeyriyyəçilik fəaliyyətinə yönəldilən vəsaitin ümumi həcminin təqribən 15 milyon dollar təşkil etdiyini söylədi.

Səfir eyni zamanda, Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsini Asiya Müsəlmanları Komitəsi ilə əməkdaşlığa çağıraraq bu növ xəstəliklərdən əziyyət çəkən şəxslərin Dövlət Komitəsi tərəfindən Mərkəzi Dənizçilər Xəstəxanasına yönləndirilməsi işində yardımçı olmalarını xahiş etdi.

Digər çıxışçılar - Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sosial inkişaf və nəqliyyat şöbəsinin rəisi Elçin Namazov, xəstəxananın urologiya şöbəsinin müdiri Elçin Mustafayev də bu humanist addıma görə Küveyt hökumətinə minnətdarlıqlarını bildirdilər, belə xeyriyyə tədbirlərinin davam etdiriləcəyinə inamlarını ifadə etdilər.

Sonda xəstəxana kollektivi ilə xatirə fotoşəkli çəkdirildi.

***"Dəniz"***

# FƏALİYYƏTLƏRİNƏ RAZILIQ VERİLMİŞ TƏSNİFAT CƏMİYYƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASINDA GÖRÜŞ KEÇİRİLMİŞDİR

***Fevralın 17-də Dövlət Dəniz Administrasiyasında "Rusiya Dəniz Gəmiçilik Registri" (RMRS), "Amerika Dəniz Gəmiçilik Burosu" (ABS), "Registro İtaliana Navale" (RİNA), "Büro Veritas" (BV) və "Türk Loydu Vakfı" (TL) Təsnifat Cəmiyyətlərinin nümayəndələri ilə birgə görüş keçirilmişdir.***

Görüş zamanı Azərbaycan Respublikası Dövlət bayrağı altında üzən gəmilərin texniki müayinəsinin həyata keçirilməsində Beynəlxalq Dəniz Təşkilatı tərəfindən qəbul edilmiş standartların, qətnamələrin və Beynəlxalq Konvensiyalara edilmiş dəyişikliklərin yerinə yetirilməsi, habelə Azərbaycan Respublikasının milli qanunvericiliyinin tələblərinə əməl edilməsi barədə müzakirələr aparılmışdır.

Eyni zamanda, Dövlət Dəniz Administrasiyası tərəfindən fəaliyyətinə razılıq verilmiş Təsnifat Cəmiyyətləri ilə qarşılıqlı əməkdaşlığın Beynəlxalq Dəniz Təşkilatının Dəniz Təhlükəsizliyi Komitəsinin 21 iyun 2013-cü il tarixli, MSC.349(92) nömrəli Qətnaməsi ilə təsdiq edilmiş "Tanınmış təşkilatlara dair Məcəllə"yə uyğun həyata keçirilməsi barədə müzakirələr aparılmış və bununla bağlı məlumatların Beynəlxalq Dəniz Təşkilatına göndərilməsi barədə razılıq əldə edilmişdir.

Həmçinin, Dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin müəyyən edilməsi məqsədi ilə Beynəlxalq Dəniz Təşkilatının Üzv Dövlətlərinin Audit Sxeminə əsasən Azərbaycan Respublikasının 2017-ci ilin may ayında Audit yoxlamasından keçəcəyi barədə məlumat verilmiş və qeyd edilən yoxlama zamanı fəaliyyətinə razılıq verilmiş Təsnifat Cəmiyyətlərinin fəaliyyətinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğunluğunun qiymətləndiriləcəyi nəzərə çatdırılmışdır. Qeyd edilən yoxlamanın keçiriləcəyi tarixədək qarşılıqlı görüləcək işlər barədə müzakirələr aparılmışdır.



# XOCALI SOYQIRIMINDAN 24 İL KEÇDİ

*"Xocalı faciəsi iki yüz ildən çox müddətdə davakar erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Müxtəlif vaxtlarda fərqli şəkildə, xüsusi incəliklə yeridilən bu mənfur siyasət və düşmənçilik heç zaman dayanmamış, gah açıq qarşıdurma və qanlı toqquşmalar şəklini almış, gah da dövrün tələblərinə uyğun ideoloji forma ilə pərdələnmişdir.*

***Heydər ƏLİYEV,***
***Ümummilli Lider***

*Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə bütün dövrlərdə hərbi, iqtisadi, idealoji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tammiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Zaman-zaman davam etdirilən bu məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## BƏŞƏRİYYƏTƏ QARŞI TÖRƏDİLMİŞ ƏN QANLI CİNAYƏT



***Ümummilli Liderimiz Heydər Əliyev Xocalı faciəsini "Ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktı, bütün bəşəriyyətə qarşı cinayət" kimi qiymətləndirmişdi. Bu soyqırımı qurbanlarının xatirəsi, ölkəmizin hər yerində olduğu kimi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində də silsilə tədbirlərlə anıldı.***

Fevralın 25-də Azərbaycan Dövlət Dəniz Akademiyasında Xocalı soyqırımının ildönümünə həsr olunmuş anım mərasimində müəllim və tələbələrlə yanaşı, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi, idarə, müəssisə və təşkilat rəhbərləri, dənizçilər iştirak edirdilər.

Tədbir Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyev çıxışında tariximizin ən qanlı hadisələrindən olan bu bəşəri cinayətin ağır nəticələrindən danışdı, dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirilməsini, əsir götürülən insanların dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını diqqətə çatdırdı.

Bildirildi ki, 24 il əvvəl fevralın 25-dən 26-sına keçən gecə keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının yaxından iştirakı ilə ermənilərin Xocalıda dinc əhaliyə tutduqları divan zamanı 613 nəfər qətlə yetirilmiş, 1275 nəfər girov götürülmüşdür. 150 nəfərin taleyindən indiyədək xəbər yoxdur. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl və qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmişdir. Qadınlara, qocalara, uşaqlara, hətta südəmər körpələrə belə rəhm edilməmiş, süngüdən keçirilmişlər.

Natiq Xocalı faciəsinin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması istiqamətində məqsədyönlü fəaliyyətə Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlandığını, məhz Ulu Öndərin təşəbbüsü ilə bu cinayətə siyasi-hüquqi qiymət verildiyini, fevralın 26-sının "Xocalı soyqırımı günü" elan edildiyini vurğuladı.

Xocalı soyqırımı haqqında həqiqətlərin Ulu Öndərin layiqli varisi, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq ictimaiyyətə çatdırılması üçün həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində artıq dünyanın bir çox ölkələri Xocalı soyqırımını tanıdıqlarını bildiriblər.

Dünyanın bu qətliamın gerçək qiymətini verməsi üçün Heydər Əliyev Fondunun gördüyü işlər xüsusi qeyd olundu. Məhz Heydər Əliyev Fondunun rəhbəri, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın və fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsləri ilə son illərdə bir sıra ölkələrdə Xocalı soyqırımının tanınması ilə bağlı kütləvi aksiyalar və tədbirlər keçirilir.

Sonra səhnə gənclərin ixtiyarına verildi. Xocalı ağrısı, Xocalı dərdi, Xocalı qətliamı poeziyanın, musiqinin, səhnə əsərlərinin dili ilə mərasim iştirakçılarına çatdırıldı. Gələcəyin dənizçiləri Təhsil Nazirliyinin Təhsil Alan Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin kollektivi ilə anım mərasimi iştirakçılarına duyğu dolu anlar yaşatdılar. Birgə hazırladıqları və Xocalı soyqırımına həsr olunmuş "Lay-lay, Xocalım lay-lay" ədəbi-bədii kompozisiyası təkcə yaddaşları bir daha silkələmədi, qaniçən ermənilərə nifrət hissini gücləndirdiyi kimi, xalqımıza qarşı törətdikləri bir çox cinayətlərə, o cümlədən Xocalı soyqırımına görə ədalətli mühakimədən yaxa qurtara bilməyəcəkləri ilə bağlı inamımıza da inam qatdı.

***"DƏNİZ"***










## XOCALI SOYQIRIMINI TÖRƏDƏNLƏR CƏZASIZ QALMAYACAQ

*Xocalı soyqırımı adlı o dəhşətli, qanlı, tükürpədici faciədən 24 il keçdi. 24 ildir ağbirçəklərimiz, analarımız təkcə o gecə min əzabla qətlə yetirilən – başı kəsilən, gözləri çıxarılan, dərisi soyulan, çarmıxa çəkilən... əzizləri üçün deyil, həm də bir gecədə yer üzündən silinən doğma şəhərləri - Xocalı üçün ağı deyirlər: "Xocalım vay!"*

Yox, yox, Xocalı daşqınlardan, zəlzələlərdən, vulkan püskürmələrindən məhv olmadı. Elə olsaydı, gec və ya tez, bu dərdlə barışmağa məhkum idik. İnsan təfəkkürünə sığmayan bu vəhşiliyin - Xocalı qətliamının müəllifləri ermənilər idi. Özlərini bütün dünyaya "yazıq", "məzlum" kimi təqdim edən, əslində isə fikri-zikri türk-müsəlman dünyasını qan selində üzdürmək olan, bu mənfur niyyətlərinə nail olmaq üçün hər cür vəhşiliyə, qəddarlığa əl atan, insanlıq simalarını hələ Xocalı qətliamından neçə əsr əvvəl itirən ermənilər... Torpaqlarımıza yiyə, sərvətlərimizə sahib olmaq üçün dondan-dona girən, havadarlarına güvənən, cəzasız qalacaqlarını düşünən, yalanlarına bel bağlayan ermənilər. Ovulası gözlərini türkün torpaqlarına dikib, böyük iştahla "O yer mənim, bu yer mənim" deyən ermənilər...

Bizi arxasız gördülər arxalı qaniçənlər?! Bizi əliyalın, silahsız gördülər təpədən-dırnağadək silahlanmışlar? Bizi unutqan saydılar "Dənizdən-dənizə böyük Ermənistan" yaratmaq məqsədlərini bir an belə unutmayan ermənilər?! Nə düşündülər, nə saydılarsa, bu boyda qətliama arxayın, gülə-gülə, sevinə-sevinə qol çəkdilər. O gecə Allahdan başqa ümid yerimiz yox idi, bircə ona güvənirdik, onun mərhəmətinə bel bağlamışdıq, bizi qoruyacağına, bu boyda dəhşətə, faciəyə, qətliama imkan verməyəcəyinə inanırdıq. Deyəsən Allahın da yadına düşmədik o gecə...

Soyqırımı tarixi, ermənilərin Azərbaycan ərazilərində məskunlaşdırıldığı dövrdən başlanır. 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələrinin, həmçinin 1828-1829-cu illərdə Türkiyə-Rusiya müharibəsindən sonra Ədirnə sülh müqaviləsinin bağlanılması ilə Azərbaycanın tarixi torpaqları bölündü. Araz çayı sərhədə çevrildi... Çar Rusiyası erməniləri işğal etdiyi Şimali Azərbaycan torpaqlarında yerləşdirməyə və onların məmləkətimizdə məskunlaşmalarına xüsusi diqqət ayırdı. Gəlmələrin ayaqları torpaqlarımıza dəyən kimi ərazi iddiaları başladı. Təkcə 1904-1905-ci illərdə ermənilər Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Cəncədə, Qarabağda, Zəngəzurda yüz minlərlə azərbaycanlını qətlə yetirdilər. İrəvan və Cəncə quberniyalarında 200-dən artıq yaşayış məntəqəsi məhv edildi. Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl ərazilərində yüzlərlə Azərbaycan kəndi tamamilə dağıdıldı.

Bir sıra hegemon dövlətlərin dəstəklədiyi bu mənfur siyasət təkcə çar Rusiyası dövründə deyil, sovet hakimiyyəti illərində də ardıcıl davam etdirildi. Sovet imperiyası dağılandan sonra ermənilərin işğalçılıq siyasəti daha geniş vüsət aldı. Təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti kütləvi talan və qırğınlarla müşayiət olundu.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərdən ibarət silahlı dəstələr Xankəndində dislokasiya edilmiş keçmiş SSRİ ordusunun 366-cı motoatıcı alayının şəxsi heyətinin və onun sərəncamında olan texnikanın bilavasitə iştirakı ilə Xankəndi və Əsgəranın arasında yerləşən Xocalı şəhərini yerlə-yeksan etdilər. Şəhəri oda qalayan erməni silahlı birləşmələri xüsusi qəddarlıqla dinc əhaliyə divan tutdular.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirilmiş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfərin taleyi isə hələ də məlum deyildir. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmişdir. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 3 nəfər diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdi. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətlərinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.

Həmin gecə baş verənlər təkcə xalqımıza qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədi. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu qanlı faciəyə ilk dəfə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi qəbul etdi.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq, torpaqların işğalı faktı ilə barışmağa məcbur etmək kimi məkrli məqsədlər güdmüşdür. Xalqımızın dövlətin suverenliyinin müdafiəsində yüksək qəhrəmanlıq nümunəsi hiyləgər, amansız düşmənin bu niyyətini ürəyində qoydu...

Bu gün Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri var. Fond sistemli və ardıcıl fəaliyyət göstərir, xüsusi layihələr həyata keçirir. Ermənilərin xalqımızın başına gətirdiyi müsibətləri əks etdirən filmlərin, fotosənədlərin, kitabların yayılması bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Fondun dəstəyi ilə Azərbaycan, rus, ingilis, alman, fransız və ərəb dillərində hazırlanmış "Qarabağ həqiqətləri" bukletlər toplusu və onların CD, DVD variantlarının əksər ölkələrdə paylanması xalqımızın üzləşdiyi fəlakətləri əks etdirən böyük təbliğat işlərindən biri olmuşdur. Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü əsasında İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun dünyanın qırxdan çox ölkəsində həyata keçirdiyi "Xocalıya ədalət!" kampaniyasının məqsədi də beynəlxalq ictimaiyyəti bu qanlı hadisə ilə bağlı ətraflı məlumatlandırmaqdır. Artıq "Xocalıya ədalət!" kampaniyasına dünyanın əksər ölkələrində xeyli könüllü qoşulmuşdur.

Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması, erməni faşizminin ifşası istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq son illər Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan İslam Respublikası, Bosniya və Herseqovina, Ruminiya, Çexiya və İordaniyanın parlamentləri Xocalı soyqırımını tanımışlar. ABŞ-ın Vest Viciniya ştatının qanunverici orqanının Nümayəndələr Palatasında Xocalı faciəsi ilə bağlı qətnamə qəbul edilmişdir. Qətnamədə Xocalıda törədilmiş cinayətlərin 1988-ci ildən Azərbaycanın Dağlıq Qarabağ regionunda erməni hərbi qüvvələri tərəfindən həyata keçirilən təcavüzün tərkib hissəsi olduğu qeyd edilir. Bundan əvvəl isə Kaliforniya, Massaçusets, Texas, Nyu-Cersi, Meyn, Nyu-Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi.. ştatlarının qanunverici orqanlarında da müvafiq qətnamələr qəbul olunmuş, Xocalı soyqırımı baiskarlarının məsuliyyətə cəlb olunması tələb edilmişdir. İndiyədək dünyanın 8 dövləti, ABŞ-ın 20 ştatı , İslam Əməkdaşlıq Təşkilatına daxil olan 53 ölkə Xocalı faciəsini soyqırımı faktı kimi təsdiqləmişdir. Bir çox ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılmışdır.

Bu gün Azərbaycan yerləşdiyi bölgənin ən qüdrətli dövləti, dünyada söz və nüfuz sahibidir. Deməli, erməni terroru, qətliamı qurbanlarının qanı yerdə qalmayacaq, Azərbaycan xalqının haqq işi qalib gələcəkdir.

Bütün Azərbaycan xalqı kimi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin kollektivi də bu inamla yaşayır, ölkəmizin iqtisadi qüdrətinin artmasına, ədalətin zəfər çalmasının tezləşdirilməsinə öz layiqli töhfəsini verir.

***Rasif TAHİROV***

# XƏZƏRDƏ GƏMİÇİLİYİN TARİXİNDƏN

***1918**-ci il mayın 28-də Milli Şura tərəfindən Azərbaycanın istiqlaliyyəti elan olundu. Azərbaycan Demokratik Respublikası mövcud olduğu iyirmi üç ayda qurub-yaratmaqla bərabər, həm də yaşamaq uğrunda ölüm-dirim mübarizəsi aparırdı. Azərbaycanı müstəqil görmək istəməyən erməni daşnakları və yeraltı-yerüstü sərvətləri zəngin ölkəmizin əldən çıxması ilə barışmayan sovet hakimiyyəti əlbir olaraq gənc respublikamıza qarşı siyasi-iqtisadi təxribatlar törədir, onu elə bələkdə boğmağa çalışırdılar.*






1918-ci ilin martında Azərbaycanda erməni daşnaklarının törətdikləri cinayətlər və milli zəmində münaqişələr respublikanın su nəqliyyatına da ciddi ziyan vurmuşdu. Noyabrın 16-da ingilis hərbçiləri Xəzər ticarət donanmasının 17 ən yaxşı gəmisini ələ keçirib, hərbi məqsədlər üçün istifadə etdilər. Bundan başqa, donanmamızın yük tutumu 90 min ton olan 60 gəmisi məhv edildi və bir neçəsi xaricə göndərildi.

1918-ci ildə Rusiya ilə dəmir yolu əlaqəsi kəsilmişdi. Rusiyanın sənaye mərkəzlərinə neft və neft məhsullarını daşımaq üçün yeganə yol Xəzər dənizi idi. Həmin ilin yaz və yay aylarında Rusiya Azərbaycandan dəniz yolu ilə gizli şəkildə xeyli neft və neft məhsullarının aparılmasına nail oldu.

S. M. Kirovun məkrli göstərişi ilə Həştərxan Xəzər Donanmasının "İliç", "Krasnoye znamya", "İnternasional", "Proletar", "Roza Lüksemburq" kimi talançı hərbi gəmilərinin dənizçiləri də bu işdə böyük fəallıq göstərdilər.

1919-cu ildə Bakıda və Həştərxanda "Xüsusi dəniz ekspedisiyası" yaradılmışdı. Ekspedisiya Azərbaycan neftini talan edib Rusiyaya axıdırdı. "Malyutin" gəmisinin, "Vstreça", "Leyla", "Maştağa" yedək gəmilərinin, "Bezımyanko" və "Çayka" motorlu qayıqlarının köməyi ilə Həştərxana dəniz yolu ilə 20 min pud benzin və 3500 pud sürtkü yağı göndərilmişdi. Xalqın sərvətinin yad diyarlara aparılmasının qarşısını almaq üçün Azərbaycan Demokratik Respublikası neft məhsullarının istehsalı və daşınması üzərində ciddi nəzarət qoymuşdu.

Azərbaycan Respublikası hökumətinin 1919-cu il 20 may tarixli qərarında göstərilirdi ki, neft sənayeçilərinə neft və neft məhsullarının Batuma göndərilməsinə, satılmasına, girovsuz mal mübadiləsinə nəzarətlə icazə verilir. Bu dönəmdə Həştərxana dəniz yolu bağlanmışdı. Əlbəttə, bu, Azərbaycan dövlətinin iqtisadiyyatı üçün heç də əlverişli deyildi. Fürsətdən istifadə edən sosialistlər tələb edirdilər ki, Həştərxan yolu açılsın, oraya neft daşınsın, ticarət əlaqələrinə başlanılsın. Azərbaycan Demokratik Respublikası Həştərxan yolunun açılmasının, mədəni, iqtisadi və ticarət əlaqələrinin yaradılmasının əleyhinə deyildi. Lakin M. Ə. Rəsulzadə məsələni qəti olaraq belə qoyurdu: "Həştərxan yolunu o vaxt açmaq istərdik ki, sovet hökuməti Azərbaycana müəyyən şərtlərlə müraciət etsin, ilk növbədə müstəqilliyimizi tanısın, daxili işlərimizə qarışmasın, Zaqafqaziya üzərində hakim olmaqdan qəti imtina etsin."

Məkrli düşmənlər Azərbaycan Demokratik Respublikasını zəif salmaq üçün ticarət donanmasını və neft sənayesini ələ keçirməyə cəhd göstərdilər. Qafqaz cəbhəsi hərbi inqilabi şuranın Orconikedziyə göndərdiyi 21 aprel 1920-ci tarixli teleqramda deyilirdi: "Sürətli hücumla Bakıda bütün maye daşıyan donanmanı ələ keçirmək və neft məhsullarının korlanmasına yol verməmək."

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Azərbaycan nefti təkcə Qazaxıstan və Türkmənistana, Dağıstan və Kalmıkiyaya, Stalinqrad və Orconikidze vilayətlərinə xidmət etmirdi. Xəzər nefti həm də dəmiryoluna və çay yoluna (Volqaya) verilir və sonra SSRİ-nin bir çox rayonlarına, o cümlədən mərkəzi vilayət və rayonlarına göndərilirdi.

Ötən əsrin 30-cu illərinin ortalarında Xəzər Dəniz Gəmiçiliyinin gəmilərinin əksəriyyəti otuz ildən yuxarı istismar müddəti olan nəqliyyat vasitələri idi. Bəzilərinin yaşı isə hətta 40-50 ildən də çox idi. Donanmada aztonnajlı və yavaş sürətli gəmilər üstünlük təşkil edirdi. Az-az gəmilərin texniki xarakteristikaları bir-birinə uyğun gəlirdi, yəni onlar seriya ilə buraxılmırdı. "Dəniz gəmilərinin Registr"inə görə, 30-cu illərin ortalarında Bakı limanında tutumu 150 registr ton və daha çox olan 106 dəniz gəmisi qeydiyyatda idi. Onların ümumi tutumu 173257 reg.t təşkil edirdi. Bu gəmilərin 48-i Rusiyada, 23-ü İngiltərədə, 20-si İsveçdə, 10-u Almaniyada, 3-ü Finlandiyada, 2-si isə Belçikada inşa olunmuşdu. 106 gəmidən 3-ü ikitəkərli, 22-si birvintli, qalanı isə ikivintli idi.

1930-1934-cü illərdə Xəzərdə böyük dəyişikliklər baş verdi. Xəzər Dəniz Gəmiçiliyinin tanker donanması xeyli dərəcədə yeniləşdirildi. Bakıya 11 iritonnajlı gəmi gətirildi. "Krasnoye Sormovo" zavodunda tikilmiş "Profintern" tipli tankerlərin dedveyti 8130 t, sürəti 11,3 uzel, uzunluğu 132,5 m, eni 16,86 m, suya oturumu 6,9 m idi. Həmin illərdə quru yük donanması da genişləndi. "Türkmənistan", "Dağıstan" kimi yük-sərnişin teploxodları istismara verildi. Bu gəmilərin dedveyti 960 t, sərnişin tutumu 600 nəfər, uzunluğu 89,4 m, eni 12,8 m, suya oturumu 5,38 m, sürəti 14 uzel idi.

Neft, Xəzərdə əsas yük hesab edilirdi. Neftin istehsalı və işlənməsi, SSRİ-nin xalq təsərrüfatında ona olan tələb Xəzər dənizi üzrə neft yüklərinin kabotaj daşınmasının artmasına səbəb oldu. 1928-ci ildən 1939-cu ilə qədər 11 il ərzində neft daşınmasının həcmi 2,7 dəfə artmışdı.

Həmin illərdə neft üç əsas istiqamətə - Volqa çay magistralında nəql edilmək üçün Həştərxana, dəmir yoluna verilmək üçün Mahaçqalaya və Orta Asiya respublikalarını təchiz etmək üçün Krasnovodska (Türkmənbaşıya) daşınırdı.

Azərbaycan neftinin daşınması üçün Bakı, Artyom adası, Abşeron və s. limanlar əsas daşınma məntəqələri idi. Az miqdarda neft Mahaçqaladan, Krasnovodskdan və Quryevdən daşınırdı.

Üçüncü beşilliyin vəzifələrindən biri neft yüklərinin dəmiryolundan Xəzər və Volqa ilə su yoluna keçirilməsindən ibarət idi. Həştərxan və Volqa istiqamətində axının gücləndirilməsi dəniz və çay yollarının daha səmərəli istifadə edilməsini təmin edirdi. Volqa üzrə neft daşınması, habelə Volqa və Ural arasında olan "İkinci Bakı" yeni neft rayonunun inkişafı hesabına artırdı.

Həştərxan və Volqaya neft axınının ümumi artımı Xəzər dənizçiləri qarşısında bir sıra təxirəsalınmaz vəzifələr qoyurdu. Bunların ən mühümü – boşdayanmaları ləğv etməklə tanker donanmasının daşıma qabiliyyətini artırmaqdan ibarət idi. Volqa-Xəzər kanalı ilə yükdaşımada da problemlər az deyildi. Həştərxana gedən neft iki dəfə yüklənirdi. Neft yükü birinci dəfə Həştərxan reydində dəniz tankerlərindən reyd gəmilərinə, ikinci dəfə isə Həştərxananın özündə reyd gəmilərindən Volqa neftdaşıyan barjlarına boşaldılırdı. Çünki Volqa-Xəzər kanalının dərinliyinin az olması üzündən, dəniz tankerləri Həştərxana qədər gələ, Volqa çay gəmiləri isə dənizə reydə çıxa bilmirdilər.

Xəzər Gəmiçiliyi daşımanın həcminə görə, SSRİ-nin bütün gəmiçilikləri arasında birinci yeri tuturdu.

1935-ci ildə gəmilərlə 13 milyon 574 min ton yük daşınmışdı ki, bu da 1934-cü illə müqayisədə ton hesabı ilə 3 faiz, ton-mil hesabı ilə isə 3,9 faiz artıq demək idi. 1936-cı ildə isə gəmilərlə 13 milyon 700 min ton neft məhsulları, 2 milyon 550 min ton quru yüklər daşınmışdı.

***"DƏNİZ"***






# SABİQ MİLYARDER SON İKİ TANKERLƏ QALMIŞDIR




*Nobu Su, zamanında yük qiymətləndirmə bazarlarının zirək oyunçusu kimi ad-san və kifayət qədər var-dövlət qazanmışdı.*

**Tayvanlı sahibkar səbəbini RBS-də gördüyü geriləmənin arxada qalmasını gözləməyə qərar verib**

**David Osler**

GÜNDƏM yaratmağa meylli olan tayvanlı gəmi sahibi Nobu Su son iki tankeri ilə qalsa da, hal-hazırda yükdaşımalardakı geriləmənin bitməsini və əvəzində dəniz daşıma yönümlü texnologiya sahibkarı kimi özünü yenidən təsdiq etməyi gözləyir.

Lloyd's List-ə verdiyi eksklüziv müsahibədə sabiq milyarder 2008-ci ildə başlayan və bir zamanlar 60 gəmidən ibarət olan, əlavə 90 gəminin sifariş edildiyi donanmaya nəzarəti itirməsi ilə nəticələnmiş qlobal maliyyə böhranına broker və bankirlərin cinayət xarakterli manipulyasiyalarının səbəb olduğuna dair əvvəlki ittihamlarını bir daha dilə gətirmişdir.

Nobu Su tərəqqi illərində yük qiymətləndirmə bazarlarının zirək oyunçusu kimi ad-san və xeyli var-dövlət qazanmışdı. Bir zamanlar onun ticarəti bütün FFA ticarət əməliyyatlarının 15 faizini təşkil edirdi.

Lakin hətta o vaxtlar belə, əksər insanlar onun hərəkətlərinin nəticələrə ciddi təsir etdiyi məsələlər üzrə sövdələşmələr aparmaq üçün əlverişli mövqedə olduğunu müşahidə etmişdilər.

Amma daşımalarda böhran başlayanda, onun əsas daşıma vasitəsi olan "Today Makes Tomorrow" donanması artan problemlərlə üzləşdi və dünyanın müxtəlif yerlərində gəmiləri üzərində həbs qoyulması əksər heyət üzvlərini çıxılmaz vəziyyətə saldı.

TMT 2013-cü ilin iyun ayında ABŞ qanunvericiliyinə əsasən şikayət etdi. Sunun dediyinə görə, hal-hazırda malik olduğu "Iron Monger 3" və "F Whale" adlı iki gəmi xam neft tankerləridir.

2012-ci ildə BK-da məhkəməyə gəlməməyə görə, icrası daha yüksək məhkəmə instansiyaları üçün icbari olmayan 18 aylıq həbs qərarı veriləndən sonra, o, Britaniyada bizneslə məşğul olmaq hüququndan faktiki məhrum olmuşdur.

Özünü bəzi aşkar ədalətsiz qərarların qurbanı hesab edən Nobu Su məruz qaldığını düşündüyü bu cür qeyri-düzgün yanaşmalara qarşı indi mübarizəyə başlayacağını vəd etmişdir.

Bu mübarizənin bir forması da maliyyə sektorunda "Lehman Brothers"in süqut etməsinə yol açmış bəzi fəaliyyətlərin gizli tərəflərini ifşa etmək məqsədi daşıyan kitabın nəşr etdirilməsi olacaq.

Həmçinin Sinqapurda Britaniya RBS-in üç sabiq işçisinə qarşı da hüquqi tədbirin görülməsi nəzərdə tutulur. Onların arasında 2008-ci ildə özünün bilavasitə icazəsi olmadan 400 milyon ABŞ dollarından çox vəsaiti TMT hesabından çıxardığı iddia edilən bankın nüfuzdan salınmış sabiq sədri Fred Gudvinin adı da hallanır.

Sabiq sədrin iddiasına görə, o, həmin məbləği Nyu-York Federal Ehtiyatlardan aşağı faizə kreditlər əldə etmək üçün istifadə edib. Bu barədə RBS-dən rəy alınması üçün müraciət olunsa da, şərh etməkdən imtina ediblər .

Bununla belə, Nobu Su inanır ki, digər gəmi sahibləri də RBS-in eyni taktiki gedişlərinə məruz qalmışlar və mümkün ümumi yanaşmanı müzakirə etmək üçün digər "qurbanlar"la da görüşəcək.

Hal-hazırda isə, fəaliyyətinin əsas istiqaməti $CO_2$ istixana qazından emissiyaları azaltmaq üçün aparılan mübarizəyə ciddi töhfə verəcəyinə inandığı hibridlərin gəmi daşımalarının inkişafına yönəlmişdir.

Onun layihələrindən biri də məlumatların dəniz mobil rabitə əlaqələri şəbəkəsi vasitəsilə ötürülməsi və qəbuluna imkan verən Ocean Net sistemidir. İlkin mərhələdə heyət üzvlərinə ailə üzvləri ilə əlaqə saxlamağa imkan verən, gəmidən-sahillə rabitə əlaqələri kimi layihələndirilmiş bu səmərəli sistem həm də təhlükəsizlik, gəmidən-gəmiyə ötürmələr məqsədilə istifadə edilə bilər.

Bu yaxınlarda BK-ya etdiyi səfər zamanı Londonun Dorchester mehmanxanasında demişdir: "Məncə, bazarda vəziyyət hələ bir müddət çox çətin olacaq və ona görə də gəmilərə sahib olmağın vaxtı deyil".

O, gəmi daşımaları bazarlarının son illərdəki vəziyyətini ötən onilliyin əvvəllərindən ortalarınadək maliyyə bazarlarında baş vermiş qeyri-rasional xərclərin əziyyətinin çəkildiyi vaxtlardakı vəziyyət kimi səciyyələndirir.

Nobu Su sözünə davam edərək deyib: "Mən o vaxt doğru söyləmişdim. Hər kəsə bazarda manipulyasiyalara yol verildiyini desəm də, heç kəs mənə inanmadı. Onlar məni, sadəcə dəli adlandırmışdılar."

Bu qaydalara zidd oyunlar, xüsusən də bankirlərin böhran öncəsi gəmi sahiblərinə azad şəkildə kredit vermək istəyi nəticəsində tələblə təklif arasında yaranmış cari balanssızlığın hökm sürdüyü keypsayz və panamaks sektorlarında özünü daha aşkar büruzə verir. Problemi Çinin artan tələbatı fonunda heç vaxt bitməyən "supersikl" barədə o zaman dəbdə olan söz-söhbətlər daha da mürəkkəbləşdirmişdir.

Nobu Su israr edir ki, aparıcı gəmi broker firmaları qiymət sahəsində effektli liderlik sərgiləmiş və tarifləri başgicəlləndirən səviyyələrədək artırmışlar. Bu hadisə, xüsusən də 2008-ci ilin mayında Baltik yük daşımaları indeksi hal-hazırkı təsəvvürlərə sığmaz səviyyələrə kimi artanda müşahidə edilmişdir.

İndi işlər o qədər mürəkkəbləşib ki, qiymətlər gerçəkliklə əlaqəsini əsaslı surətdə itirmişdir.

"Mənfəət sahibləri və o cümlədən iri quru yük daşıyanlar vaxtında qazanc əldə etsələr də, uzunmüddətli perspektivdə heç kəs fayda əldə etməyib,"- deyə Nobu Su vurğulamışdır.

Sabiq milyarderin qənaətinə görə, 2008-ci ilin maliyyə böhranı məqsədli şəkildə planlaşdırılmış və beləliklə də, banklar vergi ödəyiciləri hesabına yaşamaq imkanı verilmişdir.

Nobu Sunun fikrincə, ticarət qeydləri, yük hərəkətlərinin təhlili və bankirlərin özlərinin sözləri bu sövdələşməni sübut edir.

Lakin yaxın gələcək üçün o, dünyanın bir nömrəli quru yük operatoru olan Sanko Steamshipin 1985-ci ilin avqust ayında süqutundan bəri misli görünməmiş fəlakətin baş verəcəyini gözləyir. Həmin hadisə Yaponiyanın müharibədən sonrakı ən böyük müflisləşmə hadisəsi olmuşdu.

Yəqin təəccüblü deyil ki, onun ən sevimli son filmi Bred Pitt və Rayan Qoslinqin çəkildikləri "The Big Short" adlı dramadır.

Həmin film maliyyə bazarında bir qrup iştirakçının böhranın gözlənildiyini görərək, ev bazarına girişmək üçün kredit defolt svoplarını azaltmaqla, nə cür təmizlənmək imkanı əldə etmələrindən bəhs edir.

Nobu Su filmə iki dəfə baxdığını və bir daha baxmağı planlaşdırdığını söyləyir.

## NƏHƏNG GƏMİÇİLİK ŞİRKƏTİNİN GƏLİRİ AZALIB

***"Euronews.com" xəbər verir ki, neft və dəniz daşımaları sahəsində dünyanın ən böyük şirkətlərindən biri olan Danimarkanın "Maersk" holdinqi 2015-ci ilin sonuncu rübündə 2,5 milyard dollar zərər edib.***

Şirkət öz sərmayəçilərini ucuzlaşan neft qiymətləri və azalan konteyner daşımaları ödənişləri ilə əlaqədar bu ilki xalis gəlirinin 3,1 milyard dollardan az olacağı barədə xəbərdar da edib. "Maersk"in baş direktoru Smedeqard Andersen deyib: "Hazırda şirkətin ən böyük problemi neftin qiymətinin ucuzlaşmasıdır".

Qeyd edək ki, "Maersk" törəmə şirkəti olan "Maersk Line" ilə gəmiçilik üzrə dünyanın ən böyük holdinqi sayılır.



## MİNAAXTARAN GƏMİ HAZIRLANIB

***"Euronews"in yaydığı məlumata görə, İsrailin silah istehsalı üzrə ixtisaslaşmış "Elbit" şirkəti okeanda minalanmış ərazilərin təmizlənməsi üçün nəzərdə tutulan yeni pilotsuz "Seagull" adlı gəmi istehsal edib.***

Gəmi insan həyatını təhlükə altına almadan minaları axtarmağa imkan verir və dənizin həm kəşf edilən, həm də kəşf edilməyən hissələrində əməliyyat zonasının öyrənilməsi, təsnifatı, identifikasiyası, zərərsizləşdirilməsi və sonradan təsdiqi daxil olmaqla missiyalar planlaşdırmağa şərait yaradır. Gəmi bütün zəruri avadanlıqla təchiz edilib.



## YENİ "TİTANİK" 300 MİLYON FUNT-STERLİNQƏ BAŞA GƏLƏCƏK

***CNBC-nin verdiyi məlumata görə, 1912-ci il aprelin 15-də Atlantik okeanında aysberqlə toqquşaraq batmış "Titanik" gəmisinin eynisi inşa ediləcək.***

2018-ci ildə okeana buraxılması nəzərdə tutulan gəminin dekorasiyası, demək olar ki, "Titanik"lə eyni olacaq. 300 milyon funt-sterlinqə başa gələcək gəmidə türk hamamı, gimnastika salonu, idman alətləri və s. ən xırda nüanslar belə diqqətə alınıb. Yeni "Titanik"in ilk səyahəti isə Çinin Cianqsu şəhərindən başlayıb Dubayda yekunlaşacaq.

Qeyd edək ki, gəmi "Blu Star Line" şirkətinin sahibi, avstraliyalı iş adamı Klayv Palmer tərəfindən inşa etdirilir.

# NƏHƏNGLƏRƏ ÇEVRİLƏ BİLƏRLƏR

**Newsdesk-dən**

***Tom Leander,***

***Baş redaktor, Asiya***

***İki, dörd, altı, səkkiz... Biz necə konsolidasiya etməliyik? Məlum olmuşdur ki, Cosco-nun planı var. Ölkənin iki ən böyük daşıma şirkətinin - Cosco və China Shipping-in birləşməsi nəticəsində yaradılmış yeni "Cosco Shipping Group" şirkəti dünya konteyner daşımaları bazarında daha böyük qüdrətə malik olacaq Çin dəniz nəqliyyatı donanmasını yaratmağa çalışır.***

Fevralın 18-də Şanxayda keçirilən ilk rəsmi tədbirdə sədr Xu Lirong qeyd etmişdir ki, "Bazar bizim tərəfimizdədir, lakin idarəetmə hələ ki yox".

Vəziyyəti isə dəyişdirmək mümkündür. Konsolidasiyadan sonra CCSG şirkətinin konteyner daşımaları donanması daşımaların həcminə görə Maersk Line, Mediterranean Shipping Co və CMA CGM şirkətlərindən sonra dördüncü yeri tutur.

Növbəti addım 2M alyansı, Maersk Line və MSC kimi nəhənglərə birbaşa "hücum" etmək olacaq. Məlumatlara əsasən, yaxın gələcəkdə Cosco, CMA CGM, Evergreen and, digərlərinin daxil olacağı potensial yeni nəhəng alyansın yaradılması üçün danışıqlar aparılır.

Daha böyük alyanslarda daha çox səmərəlilik üçün rəqabət aparmaq çətindir, çünki bu bazarda gəmiçiliyin tutarlılığı kiçik tariflərlə və parakəndə ticarətdən imtina ilə yoxlanır. Konteyner gəmiçiliyi üzrə fəaliyyət göstərən və ən zəif şirkətlərdən olan Cənubi Koreyanın Hyundai Merchant Marine-si maliyyə vəziyyətini sabit saxlamaq üçün mübarizə aparır.

HMM-a sahib olan Hyundai Group-un sədri Hyun Jeong-Eun nəqliyyat biznesinin gələcəyi olduğunu bazara göstərmək üçün maliyyə çətinlikləri olan şirkət tərəfindən son ümid kimi bazarlanmış yeni aksiyalarla 24 milyon dollar əldə edib.

Maersk, ən azından hələlik, cari konsolidasiya oyunundan kənarda qalır. Onun nəhəng "Triple E" gəmisi isə üzməyə davam edir. Containerisation International və Lloyd's List-in Katherine Espina-sı Marie Maerskin 18,270 teuluq View from the Bridge-nin necə görünüb və nə "hiss etdiyini" öyrənmək üçün Capt John Moller Jensen ilə birləşdi. Gözləndiyi kimi, kapitan Jensenin böyük gəmidə rəhbərliyi böyük məsuliyyət tələb edir.

Quru yüklər daşıyan gəmilər pis xəbərlərin olduğu daha bir həftə keçirib. Con Fredriksenin Golden Ocean şirkəti dördüncü rübdə 69 milyon dollar itki elan etdikdən sonra, gəmiləri saxlamaq qərarına gəlib. Quru yük sahiblərini daha çox gəmidən imtina etməklə, daha çox intizam göstərməyə çağıran Allied Shipbroking üçün gəmiləri saxlamaq qərarı kifayət etmir. Star BulkCarriers məhsuldarlığın tənzimlənməsi üçün daha az radikal yol seçərək Golden Ocean, Bocimar International və digərləri ilə kursların birləşdirilməsi haqqında müqavilə bağlayır.

Sərt bazarda, kiçik qələbələr "həyatda qalmaq" üçün vacibdir. Belə ki, yunan mənşəli quru yük və konteynerdaşıyan gəmi sahibi Euroseas, gəlirin azalmasına baxmayaraq, dördüncü rübdə itkilərini azalda bilmişdir.

Daşıma sahəsində bu çətinliklərin bənzərliyinə cümə günü keçirilən rəsmi tədbir son qoymuşdur. Mərhum Dr Çang Yung-fa-nın vəsiyyətnaməsi təsdiq etmişdir ki, dördüncü oğlu Çang Kuo-vei Çangın qanuni varisi və Evergreen Group şirkətinin nəzərdə tutulmuş sədridir. Bu xəbərdən dərhal sonra Evergreen Group şirkəti elan edib ki, yeni rəhbərliyə dair danışıqlar hələ bitməyib. Hətta bu sahədə belə, ailə dramlarının izlənməsi davam edir.

# AZƏRBAYCANIN REGİONDA APARICI NƏQLİYYAT VƏ YÜKDAŞIMA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ İMKANLARI MÜZAKİRƏ EDİLİB



***Mərkəzi Asiya və Ərəb Körfəzi vasitəsilə Avropa ilə Çini birləşdirən qədim İpək Yolunun bərpası, dəhliz boyu yerləşən ölkələrin bu layihədə iştirakı, o cümlədən Azərbaycanın regionda aparıcı nəqliyyat və yükdaşıma mərkəzinə çevrilməsi imkanları müzakirə edilib.***

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-dən bildirilib ki, bu müzakirələr fevralın 17-18-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunan “Qədim Yollar – Yeni İmkanlar” mövzusunda Müstəqil Dövlətlər Birliyinin (MDB) Ümumdünya İşgüzar Forumu zamanı baş tutub.

Forum çərçivəsində Bakı Limanının baş direktoru Taleh Ziyadov “Tədarük zəncirinin dəyişdirilməsi- İpək Yolunun əhəmiyyəti” adlı paneldə məruzə ilə çıxış edib, limanın imkanları, əldə olunan nəticələr, limanın gələcək perspektivləri və planları barədə geniş məlumat verib.

Forumda həmçinin MDB ölkələrinin iqtisadiyyatının reallığa uyğunlaşdırılması, ölkələrin qeyri-neft sektorlarının inkişaf etdirilməsi məqsədilə mövcud imkanlardan istifadə olunması, qədim tranzit yollarının, habelə “Şimal-Cənub” nəqliyyat dəhlizinin gücləndirilməsi, neft dövründən sonrakı inkişaf prioritetləri, təchizat zəncirinin transformasiyasına İpək Yolunun təsiri, həmçinin bu istiqamətdə MDB ölkələrinin imkanlarının gücləndirilməsi və digər mövzularda müxtəlif panellər çərçivəsində müzakirələr aparılıb.

Qeyd edək ki, Forumda bir sıra böyük şirkət və təşkilatların rəhbərləri, iştirakçı dövlətlərin ayrı-ayrı sahələr üzrə rəsmi şəxsləri, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin yüksək səviyyəli rəsmiləri də daxil olmaqla 500-ə qədər iştirakçı təmsil olunub.

Ümumiyyətlə, son illər Bakı Limanının beynəlxalq standartlara cavab verən logistika və tranzit mərkəzinə çevrilməsi istiqamətində mühüm işlər görülür. Belə ki, Anverpen, Aktau, Batumi və digər qabaqcıl limanlarla qarşılıqlı əməkdaşlıq haqqında memorandumlar imzalanıb, Dubay və Sinqapur limanlarının təcrübələri yaxından öyrənilib. Bakı Limanı Avropa İttifaqı, USAİD, UNDP, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası və digər bu kimi nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində müxtəlif layihələrin icrası istiqamətində addımlar atır və beynəlxalq tədbirlərdə iştirak edir. Liman 2010-cu ildən etibarən Beynəlxalq Limanlar Assosiasiyasının üzvüdür.

# ÖLKƏ ƏHALİSİNİN SAYI CARİ İLİN ƏVVƏLİNƏ 9705,6 MİN NƏFƏR OLUB



***Azərbaycan Respublikasının əhalisinin sayı ötən il 112,6 min nəfər və yaxud 1,2 faiz artaraq 2016-cı ilin əvvəlinə 9705,6 min nəfər olub.***

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, 2015-ci ildə əhalinin ümumi artımı əsasən təbii artım hesabına baş verib. Bununla yanaşı, miqrasiya artımı da müşahidə olunub və əhalinin ümumi artımının 1,0 faizini təşkil edib. Əhalinin sıxlığı bir kvadratkilometrə 112 nəfərdir. Əhalinin 53,1 faizi şəhər, 46,9 faizi isə kənd sakinləridir və 49,8 faizini kişilər, 50,2 faizini qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə orta hesabla 1007 qadın düşür.

Son illər ölkədə doğum səviyyəsi yüksək olaraq qalmaqda davam edir və ötən il Azərbaycanda doğulanlar ölənlərin sayından 111,5 min nəfər çox olub. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2015-ci ildə ölkədə doğulmuş 166,2 min körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 17,4 təşkil edib. Doğulan körpələrin 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 3054-ü əkiz, 84-ü üçəm, 8-i isə dördəm doğulub.

Hazırda ölkədə uşaq doğmaq qabiliyyətinə malik olan hər bir qadına bütün ömrü boyu orta hesabla 2,1 uşaq düşür.

2015-ci il ərzində ölkədə 54,7 min ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölənlərin sayı 5,7 təşkil edib. Ölüm səviyyəsi gözlənilən ömür uzunluğu göstəricisinə də öz təsirini göstərir. Ötən il bu göstərici 74,2 yaş, o cümlədən kişilər üçün 71,6, qadınlar üçün 76,8 yaş olub.

Keçən il ölkədə qeydiyyat şöbələri tərəfindən 68,8 min nikah və 12,8 min boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstəricilər müvafiq olaraq 7,2 və 1,3 olub.

2015-ci ildə Dövlət Miqrasiya Xidməti və Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycana daimi yaşamaq üçün 2,7 min nəfər gələn və 1,6 min nəfər ölkədən gedən qeydə alınıb.

# CƏNUBİ ÇİN DƏNİZİNDƏ MÜNAQİŞƏ GÖZLƏNİLİR?

*Çin dövləti Cənubi Çin dənizi ərazilərində yerləşən bir neçə adaya nəzarət edən ABŞ donanmasına qarşı etiraz səsini qaldırıb. Məsələ burasındadır ki, Vyetnam və Tayvanın da öz əraziləri saydıqları həmin adalara artıq Çin tərəfindən təyyarə əleyhinə raketlərlə təchiz edilmiş hərbi qüvvələr gətirilib. Məsələnin maraqlı cəhətlərindən biri də budur ki, Pekinin iddialarına əhəmiyyət verməyən Vaşinqton da həmin regiona əlavə hərbi gəmi və təyyarələr göndərib. Ekspertlərin iddiasına görə, adıçəkilən tərəflərdən heç biri geri çəkilmək niyyətində deyil. Belə görünür ki, birbaşa hərbi münaqişə riski artmaqdadır.*

Qeyd edək ki, Çinin Parasel adalar silsiləsinə daxil olan Vudi adasına “HQ-9” tipli zenit-raket kompleksinin gətirilməsi kosmosdan lentə alınaraq, ABŞ telekanallarında da nümayiş etdirilib. Bundan əlavə, baş verən hadisənin reallığını Pentaqon rəsmiləri ilə yanaşı, Tayvan dövləti də təsdiq edib.

Britaniyanın “Guardian” nəşri regionda baş verənlərin 1962-ci ildəki Kuba hadisələri ilə eyniyyət təşkil etdiyini xatırladıb. Qəzet vəziyyətin böyük müharibə həddinə çata biləcəyinə inanmasa da, Çinin Cənubi Çin dənizini tədricən ələ keçirmək niyyətində olduğunu və bu istiqamətdə müəyyən hərbi addımlar atdığını bildirib. Qeyd edək ki, Parasel adaları silsiləsinə daxil olan Spratli adası da Çin və onun yaxın qonşuları arasında mübahisəli ərazi olaraq qalır. Parasel adaları isə Çinin hərbi qüvvələrini yerləşdirmək üçün böyük önəm kəsb edən ərazilərdəndir.

Bəlkə də, elə bunu nəzərə alan Çin dövləti ötən ilin noyabrından başlayaraq Vudi adasına “J-11” döyüş təyyarələri yerləşdirməyə başlamışdı. Hazırda isə Çin bu ərazilərə havadan müdafiə raket sistemləri gətirməyə başlayıb. Belə görünür ki, Çinin əsas məqsədi Parasel adaları yaxınlığında ABŞ hərbi aviasiyasının qarşısını almağa hesablanıb.

Xatırladaq ki, bu ilin əvvəllərində ABŞ dövləti də mübahisəli adalar silsiləsindən birinə raket silahları göndərdi. Lakin həmin ərəfədə ABŞ-ın bu addımı Pekinin məhdud da olsa, etirazı ilə qarşılanmışdı. Qeyd edək ki, bu ərazilərdə analoji əməliyyatlar həyata keçirən ABŞ-ın döyüş təyyarələri artıq bir sıra problemlərlə üz-üz qalacaq.

Göründüyü kimi, bu regionda vəziyyət o qədərdə ürək açan deyil. “Nezavisimaya qazeta”nın əməkdaşı ilə söhbətində Uzaq Şərq Araşdırmaları İnstitutunun əməkdaşı Aleksandr Larin də yaranmış vəziyyətdə 2 ölkə - Çinlə ABŞ arasında hər hansı bir münaqişənin olmasını istisna etmir: “Məlumdur ki, Çin Yaponiya ilə aralarında olan mübahisəli adalar üzərindən uçuşlara məhdudiyyət qoyub. Əgər Çin dövləti belə bir məhdudiyyəti Cənubi Çin dənizi üzərində də tətbiq etsə, belə olan halda, münaqişə riski çox arta bilər. Belə olan halda, maraqlıdır, görəsən, hər iki dövlət rəhbəri özlərini necə aparar? Hər halda mən belə başa düşürəm ki, onların heç biri özlərini aşağılamaq niyyətində olmayacaq. Bütün bunların başlıca qayəsi Çin tərəfindən ABŞ-ın Şərqi Asiyadakı təsirini zəiflətməyə hesablanıb və Çin tədricən bu məqsədə doğru irəliləyir”.

***A. Babayev***

# EGEY DƏNİZİNDƏ QAÇAQMALÇILARA QARŞI ƏMƏLİYYAT KEÇİRİLƏCƏK

***Almaniya, Türkiyə və Yunanıstanın xahişi ilə NATO Egey dənizində qaçqınları qanunsuz olaraq daşıyanlara qarşı əməliyyata başlamaq barədə qərar qəbul etmişdir. Layihə Brüsseldə alyans ölkələri müdafiə nazirlərinin görüşündə təsdiqlənmişdir. Bu barədə Almaniyanın müdafiə naziri Ursula fon der Lyayen məlumat vermişdir.***

Layihəyə görə, NATO ölkələrinin gəmiləri Yunanıstan və Türkiyənin sahil mühafizəsi, habelə Avropanın Frontex sərhəd xidməti ilə birlikdə Türkiyə ilə Yunanıstan arasındakı dəniz məkanını müşahidə etməli, toplanmış məlumatları Türkiyə və Yunanıstan hökumətlərinə ötürməlidir. NATO gəmiləri həmçinin göyərtəsində qaçqınlar olan qayıqları saxlayıb Türkiyə sahilinə qaytaracaq.

Əməliyyata Almaniya başçılıq etməlidir. Bu ölkəyə məxsus “Bonn” hərbi gəmisi artıq regiondadır və NATO-nun Türkiyə hərbi dəniz qüvvələri ilə birgə təlimlərə qatılmış 5 gəmisindən ibarət donanmaya başçılıq edir. Danimarka güman olunan əməliyyatda iştirak etmək üçün daha bir gəmi göndərməyə razılıq vermişdir.

# ZƏFƏR
## BEYNƏLXALQ İDMAN MÜKAFATI 2015





***Zəfər Beynəlxalq İdman Mükafatının 2015-ci il qalibləri müəyyən olunub. "Sportsman" jurnalının təsis etdiyi mükafat, Azərbaycan Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan İdman Jurnalistlərinin dəstəyi ilə hər il idman sahəsində fərqlənənlərə verilir. "Jumeirah Bilgah Beach Hotel"də keçirilən tədbirdə idmançılar, idman mütəxəssisləri, ictimaiyyət nümayəndələri, iş adamları, eləcə də incəsənət xadimləri iştirak edirdilər.***

Qeyd edək ki, 2007-ci ildən təqdim edilən Zəfər Mükafatı, özünün 9 illiyində beynəlxalq status qazanmağı da bacarıb. Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının üzvü (AİPS) olan "Sportsman" jurnalı, məhz bu təşkilatın baş katibini, əslən maltalı olan Çarli Kamenzulini "İdmanın təbliğindəki xidmətlərinə görə" nominasiyasına layiq görüb. Cənab Kamenzuli AİPS-in Qətərdə keçirilən toplantısında iştirak etdiyi üçün bu tədbirə qatıla bilməyib. Lakin, həmin toplantıda Azərbaycanı təmsil edən AİJA prezidenti Eldar İsmayılov mükafatı sahibinə çatdırıb.

Tədbirdə iştirak edən Azərbaycan Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov qonaqları salamlayaraq, ölkə idmanının uğurlarından danışdı. O, 2015-ci ildə idmançılarımızın beynəlxalq arenada qazandıqları nailiyyətləri qeyd edərək, ilk Avropa Oyunlarının Bakıda keçirilməsinin yaddaqalan hadisə olduğunu dedi: "Ötən il ölkəmiz mötəbər turnirə evsahibliyi etdi. Birinci Avropa Oyunları paytaxtımızda yüksək səviyyədə keçirildi. İdmançılarımız uğurlu çıxış edərək, azarkeşlərə böyük qələbələr bəxş etdilər. Əldə olunan nailiyyətlər ölkə rəhbərliyinin idmana göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. İdmançılar və mütəxəssislərlə görüşlər zamanı Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin bu sahəyə nə qədər diqqət göstərdiyinin şahidi oluruq".

İsmayıl İsmayılov "Sporstman"ın ölkə idmanındakı rolunu xüsusi qeyd edərək, yaradıcı kollektivə gələcək fəaliyyətində uğurlar arzuladı: "Uzun illərdir fəaliyyət göstərən jurnal öz dəsti-xətti ilə idman mediasında yerini tutub. Ənənəvi təşkil olunan Zəfər mükafatı "Sportsman"ın uğurudur. Mən bu işdə nəşrin kollektivnə uğurlar arzulayıram".

Bundan sonra qaliblərin mükafatlandırılması mərasimi başlanıb. Tədbirin rəsmi hissəsindən sonra qonaqlar, şux musiqi sədaları altında mətbəximizin ləziz təamlarından dadıblar.

***Vidadi Baxşiyev***

### QALİB NOMİNANTLAR

| | |
|---|---|
| * İlin idmançısı | İlham Zəkiyev |
| * İlin əzmkar idmançısı | Elvin İsmayılov |
| * İlin məşqçisi | Rəhman Hətəmov |
| * İlin idman hakimi | Fuad Aslanov |
| * İlin federasiyası | Azərbaycan Güləş Federasiyası |
| * Ilin idman klubu | "Zirvə" İdman Klubu |
| * İlin Fitnes Klubu | VİTRFİTNESS |
| * İlin idman həkimi | Rəşad Mahmudov |
| * İlin idman nəşri | "İdman" qəzeti |
| * İlin idman jurnalisti | Rasim Mövsümzadə |
| * İlin idman avtomobili | Nissan Maxima |
| * İdmanımızın gələcəyi | Hacaloğlu Ayşə Sevgi Ayxan qızı |
| * Azərbaycanın təbliğindəki xidmətlərinə görə | Rasim Məmmədov |
| * Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə | Abel Məhərrəmov |
| * Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə | Yaşar Beşirov |
| * Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə | Naiq Məmmədhəsənov |
| * Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə | Elnur İsayev |
| * Qarabağ cins atlarının qorunması və artırılmasındakı xidmətlərinə görə | Yaşar Quluzadə |
| * İdmanın təbliğindəki xidmətlərinə görə | Çarli Kamenzuli |
| * İdmanın təbliğindəki xidmətlərinə görə | Kristof Mousset |













BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 271
Tiraj: 2000
Sifariş: 29